# “Xəzan yarpağı” – Sözün əbədi baharı



Vaqif Osmanlı

(əvvəli ötən sayımızda)

Azərbaycan şeirində payız ovqatlı uğurlu lirik düşüncələr çoxdur. İlhamı payızdan, xəzandan mayalanan şairlərin kövrək duyğularından hördükləri söz çələnginə qazi şair Rəfail Tağızadənin söz dünyasında valeh olmuşam. Bəhruzun payızı, xəzan yarpaqları da Müşfiqin “Duyğu yarpaqları” kimi düşündürür, oxucusunu duruldur. Onun sarı yarpaq humanizmi insanlığa çağırışdı. Bəhruzun payızı, xəzanı həyatvericidi, qanımızı qaynadır, hisslərimizi sığallayır, sevib-sevilməyə səsləyir - bahar kimidi.

Əslində şair ömrünün bir fəsli var - sevgi ilə gözəlliyin izdivacından doğulan söz fəsli. Bu iki ilahi varlığın vəhdətindən poeziya yaranır. Əsl poeziya qəlbin nurudur. Xəzan yarpaqlarının işığında oxucunu ovsunlayır Bəhruz:

**Bir oğlan qəribdir**
**doğma kəndində,**
**Bir gözəl qız da var**
**köçməyə hazır.**
**Bir yay şeirinin**
**bu son bəndində,**
**Ilk payız ayrılıq**
**nəğməsi yazır.**

Bəhruzun minimalist şeirləri yığcam olsa da cahanşümul fikir yüklüdür. Bu şeirlərdə insanın taleyi, qisməti var, sözün hikməti, qüdrəti var. Az sözlə çox şeyi anlada bilmək zamanın tələbidi, vaxt qızıldır axı. Kiminsə zamanını oğurlamaq cinayətdi. Bəhruz anlayana tutiyə kimi içirdir sözü, dadı damaqdan getmir, tamarzı qalırsan, bu tamarzılıq mənəvi doyuma çevrilir:

**Bu yağan yağış yox, göz yaşlarıdı,**
**Buludlar ağlayır mənim yerimə.**
**Damlalar eşqimin sirdaşlarıdı,**
**Hərəsi bir az qəm qatır şerimə.**

**Fırça, qələmlik deyil,**
**Hərəni bir göz çəkir.**
**Təkcə şair şəklini,**
**Yazdığı bir söz çəkir...**

**Kələknən gələnlərin**
**Küləyi dağ aparır,**
**Danışıb, gülənlərin**
**Dilini lal qoparır.**

Buynuzda doğulub bütöv Azərbaycanın, Türk dünyasının söz kainatına ilahi söz işığı paylayan, “ruhuyla söhbət” edə-edə ruhumuzu, zövqümüzü təzələyən, “bu dünyanın qara daşını göyərdən” Musa Yaqubun ümidi, davamçısı Bəhruz Məmmədovun şeirlərindən Buynuzun, ustadının poeziyasının ətri gəlir, nəfəsi hiss edilir. “Buynuzun bir başqa baharında – bənövşə quzeydən miskin boylananda, köçəri quşlar səs-səsə verəndə, bir az leysan yağıb ildırım çaxanda, bir başqa yayında – çayın laylasında körpə kimi yatanda, bir başqa payızında – bir az yağış yağanda, bir az yarpaq, bir az şair islananda, bir az torpaq, bir başqa qışında – kənd qardan yorğan geyinəndə, dağlarda bulaqlar buz bağlayanda, şipşirincə qəndimiz bir az buzdan olanda”...

Aman Tanrım, bu “bir az”lardan da ilahi “Buynuz mənzərələri” yaradanın necə ürəyi, necə gözü, necə başqa duyğu üzvü var görəsən?! Musa Yaqub məktəbi!

**Könlümə qar düşüb,**
**Üşüsün ayağım, üşüsün əlim.**
**Girim xatirələr burulğanına,**
**Gedim uşaqlığa qayıdım gəlim.**
**Gəlim o balaca saf uşaq kimi,**
**Nə dərddən, nə qəmdən xəbərim olsun.**
**Ram suyun üstündə donan buz kimi,**
**Sımsığal, tərtəmiz ürəyim olsun...**

Sözsevərlər çağdaş Azərbaycan poeziyasının onurğa sütunlarından biri Musa Yaqubu cismən itirəndə Bəhruz Buynuzdan uzaqlarda - Neft Daşlarındaydı. Yaşadığı 9-cu qatdakı mənzilinin pəncərəsinə qonub məlul-məlul içəri baxan, ilk dəfə möcüzələr şəhərinə pənah gətirən qaratoyuq gecəyarı Buynuzlu oğlana bu xəbəri verməyə ürək eləməyib. Ancaq soraq gətirənin küskün, soyuq baxışından Bəhruz anlayıb ki, Qafqazın poeziya qartalı, “ilahi, mən bu daşı götürüm, götürməyim?” dileması ilə üz-üzə qalan poeziya sərkərdəsi “dünyanın bu boyda oyun-moyunu”ndan bezib haqq tərəzisinin gözləri əyilməyən dünyaya köçüb. “Musa Yaqubun vəfatına” şeiri onun ustadına yazdığı elegiyadı. “Vələslər kimsəsiz qalan, Şah dağı qocalan, Sənəm yaylağına vaxtsız qar düşən, dəyirman arxının suyu quruyan, İsgəndər quşları hay salan” darmacal vaxtda dənizin qoynunda Bəhruzun kədərinə şərik olan, təsəlli verən sadiq qələmi və təxəyyülü oldu:

**... Dedilər Göyçayın suyu durudu,**
**Yəqin bulaqların ağladı çoxu...**
**... Ey ulu Xaqani, ey şair babam,**
**Saldığın körpüdən biri də keçdi.**
**Kədərə bürünüb doğma el-obam,**
**Əlində heç nəsi Dədə də köçdü...**
**Boş qalmaz Hadinin şeir bazarı,**
**Sabaha sözüylə Musa da getdi.**
**Kəndinin payına düşdü məzarı,**
**Oranı müqəddəs xiyaban etdi...**

Ön cəbhədən qayıdan Bəhruz yenə ön cəbhəni seçdi. Dəniz də ön cəbhədi axı.

Bəhruzun ömrünün neçə-neçə anını, gününü, ayını, ilini ana Xəzər qoynuna alıb, Günəşi Xəzərin qucağında qarşılayıb, qürub vaxtı yola salıb uğurlayıb ki, yeni sabahlara hamilə Günəş ana növbəti dəniz gününü doğsun. Onu da qeyd edim ki, bu təbii gözəlliyin doğuluşunu və “hələlik, sabah görüşənədək” deyib “istirahət”ə getməsini fotoaparatın, telefonun yaddaşına köçürmək onun sevimli işidir. Onun belə “əsər”lərini görəndə Flora Kərimova və Yalçın Rzazadənin ifasında Emin Sabitoğlunun “Bakı, sabahın xeyir”, Şövkət Ələkbərovanın bal kimi şirin səsində Tofiq Quliyevin “Axşam” mahnılarını qeyri ixtiyari zümzümə edirəm. Və Bəhruzun qağayılarla munis söhbətini eşidirəm: “Qağayılar, qıy vurun!” Bir də dalğaların şahanəliyinə, qara-boz qayaların dalğalarla savaşı zamanı mərdanəliyinə, ləpələrin həzin zümzüməsinə, polad estakadayolların dözümünə Bəhruzun poetik baxışı elədir ki, dəniz mənzərələri yaradan ən məşhur marinist rəssamlar və şairlər buna qibtə edərlər.

Bəhruz bu gün daha çox Xəzərin - “Sevgi dənizi”inin insan əliylə çirklənmiş suyunun halına yanır. Həyəcan təbili çalır ki, ey insanlar, bizdən varını əsirgəməyən, təmənnasız şəfqət göstərən Xəzərin bizdən bir istəyi var – mərhəmət. Mark Tvenə görə, şəfqət və mərhəmət elə bir dildir ki, onu karlar da eşidir, korlar da oxuya bilir. Gecə-gündüz həzin nəğmələr pıçıldayan səxavətli və qağayı qıylı Xəzər eşidir və görür. Hətta şair vurğulayır ki, bir vaxt ceyran su içərdi bu dənizdən”. Azərbaycana gələn səyyahlar səfər qeydlərində Pirallahı adasında ceyran sürülərinin gəzdiyini yazıblar. Ceyran da küsdü bizdən, balıqlar da üz döndərməkdədir. Çünki biz dənizin qəniminə çevrilirik, nəfəsini kəsirik.

**Ləkələyir qara mazut çöhrəsini,**
**Qara kürü, qızıl balıq, nərəsini,**
**Itirəcək belə getsə bəhrəsini,**
**Sonra da gəl bu dənizdən inci istə.**

Bəhruz dəniz kimidi, səxavətli və qayğıkeş. Bəhruz payız kimidi, daha doğrusu, payızla eşq yaşayır. Ürəyi genişdi. Bütün gözəllərə və gözəlliklərə ürəyində yer var. Bir həzin dəniz mehi, payızda köç edən durna qatarından düşən bir ləleyin titrək rəqsi onun könül tellərini dilə gətirər. Payız çiskinində “daha islanmaqdan yoxdu qorxusu, sinəsinin üstündən keçən dağ çayı isti xəyallarına” sərinlik gətirir.

Onun xəzan yarpağı humanizminə, fəsəfəsinə duyğulanmamaq ürəksizlik əlamətidir, sevgi çatışmazlığı sindromudu. “Ayağı altındakı xəzan yarpağı onun vücudunu titrədir”. Dünyanın qəribə işləri düşündürür onu:

**Yaşayıb budaqda, torpaqda çürü...**
**Günəşin rəngini əyninə geyib,**
**Kəfən tikdiribdi yarpaq özünə.**

İlahi! Budurmu poeziya?! Budursa, şairin qəlbindən axıb gələn, insanlığa örnək işıq selinin miqdarı, istisi nə qədərdir! Bunu rəqəmlərə sığışdırmaq mümkün deyil.

Tam əmin oldum ki, poeziya heyrətdi!

**Niyə yaxınlaşır bu torpaq mənə,**
**Sonbahar ömrünü mənə görk edir?**
**Min yarpaq bir gündə budaqdan yenə,**
**Bir yarpaq qayıtmır, biryolluq gedir.**

Bəhruz qeyri-adi söz adamıdı – “yazılmayan şeir”ni artıq yazıb.

O, 13-14 yaşında elə sevib ki, “heyif ki, dərdini bilmirdi sevdiyi, ürəyini bəndə salan çox gözəl ingilis dili müəllimi”.

**Artmışdı həvəsim on qat məktəbə,**
**Səliqə-sahmana fikir verirdim.**
**Qəlbim də gəlmişdi yamanca təbə,**
**Ingilis dilində qəzəl deyirdim....**
**... Günlərin bir günü təzə bir xəbər,**
**Bombatək partladı qulaqlarımda.**
**Gəlin köçəcəkdir o gözəl dilbər,**
**Taqət də qalmadı ayaqlarımda.**

Başqa bir ilahi eşq:

**Sən demə yenə də açıq qoymusan,**
**Yuxuma gələndə pəncərələri.**
**Əynimdən paltarı nə vaxt soymusan?**
**Yorğansız qoymusan düşüncələri...**

“Xəzan yarpağı”nın son yarpaqları nəsrlə yazılmış ömür etüdləridir. Təkcə adları çox mətləbləri anladır: “73-lər qırmızı kitaba düşüb”, “Atamın əlləri”, “Şuşaya getməyim gəlir”, “Yalnız gələcəyə doğru”, “Ad qoyun” və “Görən sonu çoxmu ağır?”. Bəhruz qazi də 73-lərdəndi, bələləri qorumaq onları anlayanların, mənəviyyatına heyranların müqəddəs işi olmalıdır. Birinci Qarabağ müharibəsinin ilk könüllüləridi 73-lər...




(ardı gələn sayımızda)